Xalq qəzeti .- 2024.- 16 yanvar, № 008.

Jurnalist ezamiyyətdən qayıdıb

# Şuşa açıq səma altında canlı bir muzeydir

## Bu şəhərin turizm potensialı yenidən cana gəlir

**Azərbaycanın cənnət guşəsi olan Şuşa erməni işğalına qədər qaynar turizm mərkəzi olub. Onun mülayim sərin iqlimi öz müalicəvi xüsusiyyətlərinə görə dünyaca məşhur olan Davos və Kislovodsk kimi kurort zonalarının havası ilə oxşardır. Burada sanatoriyalar, pansionatlar və turist bazaları var idi. Hər il keçmiş SSRİ-nin müxtəlif regionlarından buraya minlərlə xəstə müalicə üçün gəlir və şəfa tapırdı.**





Şuşa həm də Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biridir. Şəhərin ərazisi qədim abidələrlə zəngindir. Prezident İlham Əliyev çıxışlarından birində bildirib ki, Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incisidir. Vaxtilə, "Bazarbaşı" deyilən yerdən "Şeytanbazara" qədər üstüörtülü ticarət mərkəzi uzanırdı. Şəhərin əsas küçəsi isə "Rastabazar" adlanırdı və meydanı ilə məşhur idi. Ərazidə ticarət təyinatlı tikililərdən, birmərtəbəli dükanlardan, ikimərtəbəli karvansaradan başqa, qoşa minarəli Cümə məscidi də ona yaraşıq verirdi.

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) "Dizayn" kafedrasının dosenti Yeganə Ağamalıyeva bildirib ki,** sovet dövründə müasir Şuşa şəhəri üç hissədən: yeni yaşayış, sanatoriya–kurort və tarixi–qoruq zonalarından ibarət idi: "Şəhərin zəngin memarlıq irsi abidələrinin böyük əksəriyyəti XX əsrin sonlarınadək qorunub saxlanılmışdı. Lakin 1992-ci ildə ermənilərin işğalçılıq siyasətin nəticəsində tarixi abidələrimiz, məscidlərimiz dağıdılıb, təhqir edilib. İşğala qədər Şuşada nə az– nə çox 300-dək mədəniyyət və tarixi abidə olub. Memarlıq – şəhərsalma mühitinə edilmiş sərt müdaxilələr, dağıntılar əsrlər boyu formalaşmış məkan quruluşunun düşünülmüş şəkildə dəyişməsinə xidmət edib".

...Şuşa işğaldan azad olunduqdan sonra şəhərin tarixi–mədəni və strateji əhəmiyyətə malik ərazilərinin, abidələrinin bərpasına başlanıldı və onların öz simaları qaytarıldı. Prezident İlham Əliyev 2021-ci il yanvarın 14-də Şuşaya Zəfər yolu ilə səfər edərək, bu tarixi missiyanın uğurlu təməlini qoydu. Həmin səfər zamanı dövlət başçısı illərdir didərgin həyatı yaşayan Natəvanın, Üzeyir bəyin, Bülbülün güllələnmiş büstlərini də öz doğma yerlərinə qovuşdurdu, onların da ruhlarını şad etdi. Dahi şəxsiyyətlərimizin büstlərinin Şuşaya, öz əzəli torpaqlarına qaytarılması qələbəmizin daha bir sarsılmaz rəmzinə çevrildi. Sonra Vaqifin məqbərəsinin bərpa işlərinə başlanıldı.

Biz Şuşada bərpa olunmuş məqbərəni ziyarət etdik. Onun inşasında xalq memarlığının yerli ənənələrinə, monumental-dekorativ və tətbiqi plastika vasitələrinə yer verilib. Türbənin daxilində Molla Pənah Vaqifin büstü qoyulub. Abidənin hər detalında tarixi görkəm qorunub saxlanılıb.

Şəhərin mərkəzində Heydər Əliyev Fondu tərəfindən bərpa edilmiş abidələrdən biri Saatlı məscididir. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb.



Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi, Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. Məscidin ölçüsü kiçik olsa da, mükəmməl görünüşü və əla ornamentləri var. Onun daxili ornametləri daha çox diqqət çəkir. Bərpa zamanı onlar bütün incəliklərinə qədər qorunub saxlanılıb.

Ötən il mayın 10-da Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Şuşada Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Saatlı məscidinin açılışında iştirak ediblər.

Bu məscidin yaxınlığında Ağa Qəhrəman Mirsiyab oğlu və Xanlıq Muxtar karvansarayları yerləşir. Müxtəlif ölkələrdən gələn müsafirlər karvansaralarda qalır, ticarət mübadiləsində iştirak edirdilər. İşğal zamanı binalar möhkəm zədələnmişdir. Sonradan ermənilər onların tarixi görkəminə xələl gətirilməklə guya bərpa işləri görmüşdülər. Bu zaman şəbəkə üslubunda hazırlanmış qapı-pəncərələri, eyvanı dağıdılmışdı. Şuşa işğaldan azad ediləndən sonra Ağa Qəhrəman Mirsiyab karvansarayı bərpa edilib.

Meydanın memarlıq ansamblının dominantı isə Yuxarı Gövhər ağa məscididir. Bu məscid də bərpa olunaraq dindarların istifadəsinə verilib. Bunlar Şuşanın mərkəzindəki abidələrdir. Şəhərdə isə tarixi abidələr çoxdur. Çünki şəhərdə 17 məhəllə var ki, onların hər birinin məscidi, bulağı və hamamı mövcud olub.

...Tarixi abidələr Şuşanın yüksək turizm potensialından xəbər verir. Onlar reallıqda bədii və tarixi informasiyaların daşıyıcısıdır. Memarlıq sərvətlərimiz olan abidələr keçmiş dövrlərin mədəni inkişaf səviyyəsini və incəsənət meyarlarını açıqlayırlar.

Beləliklə, müxtəlif ölkələrdən gələn qonaqlar əsrarəngiz təbiətə malik mədəniyyət paytaxtı - Şuşanın tarixi, memarlığı ilə yaxından tanış olub, keçmişi ilə bağlı daha çox məlumat əldə edəcəklər.

***P. ƏFƏNDİYEV***
***XQ***

***Bakı–Şuşa–Bakı***